Azadlıq Radiosu

DÜNYA

# ABŞ Rusiyanın 'VTB Bank'ını İrana görə sanksiya siyahısına saldı

indicə




VTB Bank

Birləşmiş Ştatlar Rusiyanın "VTB Bank"ına yeni sanksiyalar tətbiq edib. Ölkənin ən böyük banklarından olan VTB İranın ABŞ sanksiyalarından yayınmasına kömək göstərməkdə ittiham olunur.

ABŞ Maliyyə Nazirliyi sentyabrın 14-də bildirib ki, VTB sanksiya altında olan İran maliyyə qurumları ilə müxbir bank əlaqələri yaradıb, İranda nümayəndəliklər açıb, ticarətin asanlaşdırılması üçün addımlar atıb, İranın milyardlarla dollarlıq aktivlərinin köçürülməsinə yardım edib.

Bu addım Vaşinqtonun genişlənən "İqtisadi təcrid" əməliyyatının bir hissəsidir. Kampaniya ötən ay başlayıb, məqsədi İranın gəlir əldə etmək, sanksiyalardan yayınmaq,

hökuməti və onun regional müttəfiqlərini maliyyələşdirən gizli şəbəkələri müəyyənləşdirib sıradan çıxarmaqdır.

## VTB onsuz da sanksiya altında idi, bu dəfə...

Moskvanın Ukraynaya qarşı müharibəsindən dolayı VTB artıq ABŞ-nin geniş sanksiyaları altında idi.

Son qərar isə bankın İranla bağlı sanksiya mexanizmləri çərçivəsində hədəfə alınması deməkdir. Bu, VTB ilə əməkdaşlıq edən xarici maliyyə qurumları üçün riskləri daha da artıra bilər.

ABŞ-nin maliyyə naziri **Skot Bessent** bildirib ki, Vaşinqton İrana maliyyə və ya texnoloji dəstək göstərən qurumları hədəfə almağa davam edəcək. O, sanksiya rejimini pozan xarici bankların ikinci dərəcəli sanksiyalarla üzləşə biləcəyi barədə xəbərdarlıq edib.

Bundan əvvəl Vaşinqton Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdəki şirkətlərə və maliyyə şəbəkələrinə qarşı tədbirlər görüb. Vaşinqton Tehranın istifadə edə biləcəyi alternativ kanalları bağlamağa çalışır.

Sentyabrın 10-da ABŞ Maliyyə Nazirliyi İranla bağlı xüsusi lisenziya müraciətləri üzrə qaydalarını dəyişib, onlar əsasən rədd ediləcək.

ABŞ-İran müharibəsinin ilkin fəsadları hələ başlanğıcdır, əsl böyük zərbə isə qlobal iqtisadiyyata dəyəcək. Çünki müharibə nefti kəskin bahalandırıb, maliyyə bazarlarında təlatüm yaradıb. Bunu AzadlıqRadiosuna "Obsidian Risk Advisors" şirkətinin sanksiyalar və maliyyə cinayətləri üzrə eksperti **Brett Erikson** deyib.

## Buna da bax:

Neft yenə bahalanıb - Hörmüz görüşü təxirə düşüb

Hərbi mənbələr: Husilər Yəmənin Moxa limanını ələ keçiriblər

ABŞ İranla əlaqəli şəbəkələrə sanksiyalar açıqlayıb

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur